## Osman Fermanoğlu

### Al Apar

Qoşulduğum köç yolunu çaş salır,
Tanrım, məni bu köçümdən al apar.
Ha gedirəm, əlim,  ovcum boş qalır,
Durulmuram bu seçimdən, lil apar.

Ürəyimdə  təzə yolun həvəsi,
Çətin keçəm bu qandallı qəfəsi,
Tünlüklərdə kəsilməkdə nəfəsim,
Yox oluram öz gücümdən, bil apar.

Hava solğun, hava durğun, bürkülü,
Dörd tərəfi dolanıram mürgülü,
Yerişimdən ölçü-- biçi tökülür,
Azad eylə bu biçimdən, gəl apar.

Gozlərimə görünsə də düz kimi,
Deyən, tökən əyri töküb bu himi.
Adamları birbirinin qənimi,
Bu gəlimdən, bu keçimdən böl apar.

Hər yan açıq, gələn-- gedən əl çəkir,
*Osman*, dərdin ağırını el çəkir,
Üç tünlüksə, omrü yenə çöl çəkir,
Ya çölümdən, ya içimdən sil apar.